**BÖYÜKXANIM EMİNLİ**
**Sumqayıt Dövlət Universiteti**
**dilmetodika.filologiya@gmail.com**

# DİALOJİ NİTQ ETNOKULTOROLOJİ FAKTOR KİMİ

**Açar sölər:** dialoji nitq, linqvokulturologiya, ünsiyyət mədəniyyəti, danışıq dili, bədii dialoq
**Ключевые слова:** диалогическая речь, лингвокультурология, культура общения, разговорная речь, художественный диалог
**Key words:** dialogic speech, linguoculturology, communication culture, spoken language, artistic dialogue.

Hazırda cəmiyyətin sosial həyatına mədəniyyətin təsirinin artması, insanın sosial fəaliyyətinə stimulu kimi mədəniyyətin rolunun, insanların mədəniyyətə sosial fəallığın əsası və səbəbi kimi arxalanmasının güclənməsi müşahidə olunur. Cəmiyyətin sosial mədəniyyəti insanların sosial aktivliyini tənzimləyir, əhalinin mədəni özünüdərkini, humanitar istiqamətlənməsini, dünyagörüşünü, onların davranışının və kommunikasiyasının sosial adekvatlığını müəyyən edir. Bu proseslərdə əsas yeri etnik mədəniyyət tutur ki, bu da etnosun kollektiv ictimai gücü, resurslarıdır, sosiumun mədəni həyatının qorunması və yenilənməsi cəhdində gerçəkləşir. Müasir sosiumun mövcudluğunun etnokultoroloji aspektləri fundamentaldır və sosium yaradandır.

Etnokulturologiya-kulturologiyanın bir sahəsi kimi etnosun inkişafının mədəniyyət mühitinin, bütövlükdə cəmiyyətin inkişafının müəyyənedici faktoru kimi zəruridir. Dialoji nitqin etnokulturoloji cəhətdən öyrənilməsi müasir linqvistikada aktual tədqiqat istiqamətini özündə əks etdirir. Məlumdur ki, nitq fəaliyyətinin öyrənilməsi dedikdə biz ilk növbədə dialoji ünsiyyət situasiyasını nəzərdə tuturuq.

Dialoqun nəzəriyyəsi geniş linqvistik problemlər çevrəsi ilə əlaqədar olub, dilçilik çərçivəsindən də kənara çıxır. İnsan münasibətlərinə maraq olan hər bir yerdə dialoqa da maraq yaranır, çünki dialoqla biz kommunikasiya, qarşılıqlı təsir, kontakt haqqında təsəvvürlərimizi əlaqələndiririk. Son illər dialoqa kompleks yanaşma inkişaf edir ki, bu da nitqə psixolinqvistika və sosial psixologiyanın nəzəri nailiyyətlərini təcəssüm etdirən insan fəaliyyətinin müxtəlifnövlülüyü kimi təsəvvürə əsaslanır. Dilin kommunikativ funksiyası ümumxalq dili vahidlərinin insanların ünsiyyət şəraitindən, məqsədindən asılı olaraq, cəmiyyətin ayrı-ayrı üzvlərinin qarşılıqlı təsirinin müxtəliflnövlülüyünə müvafiq istifadəsini müəyyən edir. Dialoji nitq ümumxalq dilinin funksional-üslubi danışıq müxtəlifnövlülüyü forması kimi, dilin kommunikativ funksiyasının

parlaq tərənnümünü özündə əks etdirir. Belə ki məhz dialoji nitqdə məlumat insan kollektivinin ardıcıl qarşılıqlı ünsiyyətinə keçir. Dialoji nitq məişətdə, televiziya və radioda (müsahibə), internetdə insanların gündəlik həyatının bir hissəsidir. Dialoji nitq Azərbaycan və dünya dilçiliyində geniş tədqiq olunsa da, amma bu hələ sistemli və bütöv şəkildə deyil. Tədqiqat üçün müxtəlif dillərin, eləcə də şifahi danışıq dilinin, bədii əsərlərin materialları əsas sayılır. Dialoji nitqə maraq keçən əsrin 40-50-ci illərindən başlanılmışdır. Dialoq nəzəriyyəsinin əsaslarına rus dilçiliyində L.P.Yakubinski, L.V.Şerba, V.V.Vinoqradov, M.M.Baxtin kimi alimlərin əsərlərində rast gəlinir. Dialoqa həsr olunmuş böyük tədqiqat materialları bu məfhumun mürək-kəbliyi, çoxaspektliliyini sübut edir. Dialoq spesifik vasitələrində dilin konkret mücəssəməsidir, nitq ünsiyyəti formasıdır, insanın nitq fəaliyyəti sferasının yaranması, dilin mövcudluq formasıdır. Birinci halda dialoji nitqin gerçəkləşməsi, danışıq zamanı yaranmış nitq strukturu təhlil olunur, ikinci, tədqiqatçı bu nitqin yaranması və axması ilə qarşılaşır, üçüncü halda dialoq problemi dilin ictimai funksiyası ilə əlaqədar məsələlər çevrəsində olur. Dialoq haqqında danışarkən, bütün tədqiqatçılar aşağıdakı xüsusiyyətlərə toxunurlar: minimum iki həmsöhbətin mövcudluğu; aralarında söyləm mübadiləsi olan nitq şəraitinin qeyri-icbari xarakteri, nitqin dəyişən ünvanı, danışanların mütləq növbələşməsi, nitqin eyni zamanda qəbul edilməsi, hazırlığı və gerçəkləşməsi; dilxarici kommunikativ vasitələrin böyük əhəmiyyəti; dil situasiyasının daimi dəyişilməsi. İlk tədqiqat əsərlərində artıq dialoqun linqvistik problemlərinə münasibət insan fəaliyyətinin müxtəlif növləri mövqeyindən çıxış edirdi. L.P.Yakubinski yazırdı ki, dil insan davranışının müxtəlifnövlülüyüdür, psixoloji faktdır, insan orqanizminin təzahürüdür, sosioloji faktdır, insanların birgə fəaliyyətindən asılıdır. [3.18.] O,dialoq nitq ünsiyyəti kimi, nitq fəaliyyətində əməkdaşlıq kimi təzahür edir. Dialoqun bütün xüsusiyyətləri onun yaranma, büruzə vermə spesifikası ilə əlaqədardır ki, bu da müəyyən şəraitdə həmsöhbətlərin şifahi spontan nitqini yaradır. Bədii ədəbiyyatda dialoq ikili xarakter daşıyır. Bir tərəfdən, dialoji nitqin onun müəllifi tərəfindən işlənməsi, digər tərəfdən, bu nitqin canlı danışıq dilinə əsaslanması. Dialoqun mövzusu təbii olmur, müəllifin istəyi ilə olur. Ona görə də bədii əsərdə məişət situasiyalarına aid söhbətlərə az rast gəlinir. Eləcə də bədii nitqdə dialoqda pərişanlıq, mövzu olmadığından pauza baş vermir. Bu hallar gündəlik canlı nitqdə baş verir. Dialoq bədii söz mətni kimi dramda aparıcıdır, epik əsərlərdə də rast gəlinir. Dialoq müstəqil publisistik, fəlsəfi janr kimi də mövcuddur. (məsələn, Platonun dialoqu)

Bədii dialoqda danışıq nitqi xüsusiyyətləri imitasiya olunur, şifahi ünsiyyətin mümkün olduğu qədər həyata keçir. Halbuki bu proses müəllifin düşünülmüş, planlaşdırılmış hərəkətləri ilə xarakterizə edilir ki, bu da şifahi kommunikasiyanın spontan xarakterinə ziddir. Bədii mətndə personajların

nitqi müəllif təsəvvüründə şifahi ünsiyyətin yazılı qeyd olunmuş imitasiyasıdır, belə dialoq özündə, eyni zamanda, şifahi və yazılı nitq cizgilərini birləşdirir. Bədii mətnin spesifikası "daxili" (personajlar arasında) və "xarici" (müəllif və oxucu arasında) kommunikasiyanın mövcudluğu ilə üzə çıxır. Danışıq dili dialoqu özündə aşağıdakıları əks etdirir: çox sayda danışıq vahidləri və loru sözlərin işlənməsi, emosional-ekspressiv leksikanın geniş istifadəsi və sintaktik vahidlərdən - sadə cümlələr və bağlayıcısız cümlələrin işlənməsi, milli kolorit daşıyan frazeoloji vahidlərin işlənməsi, intonasiyanın mühüm rolu. Danışıq dili qısa, natamam sadə konstruksiyalar tələb etdiyi üçün xüsusi yeri dilxarici faktorlar - intonasiya, mimika alır. Vasitəsiz nitqin formalarında dialoq daha çox məişət danışıq dilinin xüsusiyyətlərini əks etdirir.Ünsiyyət şəraitindən (situasiyasından), dialoq iştirakçılarının münasibətindən asılı olaraq, dialoji birliyin hissələri arasında məntiqi məna münasibətləri nitqin məzmunu ilə əlaqədardır. Bununla əlaqədar replikaların, dialoqların ayrı-ayrı tipləri mövcud olur: nəqletmə və informativ , etiraf və inandırma dialoqu, emosional dialoq, mübahisə və konflikt dialoqu, intellektual dialoq və s.

Dialoqun təbiəti onun mürəkkəbliyini ehtimal edir. Dialoq məzmunca qarşılıqlı əlaqədə olan birləşmələrin fikir, mühakimə, nitq sıralanmasının məntiqi zəncirinin ifadə vasitəsidir ki, burada iki danışan sanki bir fikir, quruluş yaradır və burada mövzu iki nəfər arasında müəyyən edilir. Mürəkkəb vahid kimi, dialoqun spesifikası sıx şəkildə onun tematik bütövlüyü, məzmunun inkişaf xarakteri ilə, fikrin hərəkəti ilə əlaqədardır.

Hər şeydən əvvəl, dialoji nitq bilavasitə reaksiya tələb edən nitqdir. Belə ki dialoji nitq zamanı həmsöhbət deyilənə öz münasibətini bildirir: ya sual verir, ya təsdiq verir, ya inkar edir. Dialoji nitqin bu cəhəti danışanın pz fikriniifadə etmək istiqamətinə təsir göstərir, onu müəyyən səmtə yönəldir. Dialoji nitqin digər xüsusiyyətləri dialoqun danışan adamların emosional-ekspressiv rabitəsi şəraitində baş verməsidir. Bu zaman dialoji nitqin iştirakçıları bir-birlərini bilavasitə qavrayır və emosional vəziyyətlərini qiymətləndirirlər. Nəhayət, dialoji nitqin bir xüsusiyyəti də onun müəyyən şəraitlə və ya obyektlə bağlı olmasıdır. Bu mənada o, situativ səciyyə daşıyır, söhbətin obyekti dəyişən kimi dialoqun istiqaməti və xarakteri də dəyişir.

Dialoqun xarakteri aşağıdakı faktorlardan, onların cəmindən ibarətdir: söyləmin məqsəd və predmeti, danışanların hazırlıq səviyyəsi, həmsöhbətlər arasında münasibət, onların söylənənlərə, konkret ünsiyyət şəraitinə münasibəti.

L.D.Yakubinskinin fikrincə, nitq məsələnin nə yerdə olduğunu anlayan dinləyiciyə möhtacdır. [3.19] İnformasiyanın əlavə ötürücüsü olan vasitələrinə mimika, jest, müxtəlif bədən hərəkətləri xidmət edir, danışanın intellektual və emosional halı ilə əlaqədardır. Bu kommunikativ vasitə daha

çox dialoji nitqin qurulmasında özünü göstərir, dialoq tədqiqatçıları tərəfindən daim qeyd olunur, informasiya nəzəriyyəsi və işarələr sisteminin tədqiqində əsas yer tutur. Dialoqun vacib tərəflərindən biri də dialoji söyləmlərin mürəkkəb strukturda birləşməsində və informativ vasitə kimi intonasiyanın roludur. İntonasiyanın müxtəlif funksiyaları bir-biri ilə birləşə bilər. Nitq xarici bütün faktorların təsiri dialoqun strukturunda əks olunur. Reaksiyanın xarakteri dialoqun modallıq xüsusiyyətlərini müəyyən edilir.

Danışıq dialoq nitqinin əsas xüsusiyyəti replikaların qısalığı, natamam söyləmlərin olması, qeyri-verbal ünsiyyət vasitələrinin geniş işlənməsi, intonasiya, sərbəstlik, nitqə hazırlıqsız olmaq, danışıq dili üçün xarakter olan leksikaya (slenq, jarqonizmlər və s.) sahib olmaq və s. ilə şərtlənir. Bədii əsərlərdə bu məqamlar müəllif remarkaları vasitəsilə əks olunur. Dialoq vahidliyinin əsas növü sual-cavab kompleksidir. Reaksiya xarakterinə böyük əhəmiyyət verilir. Bununla əlaqədar, ziddiyyət, razılıq, əlavə replikaları, mövzunu müşayiət edən və onu başqa səmtə yönəldən replikaları göstərmək olar. Reaksiya xarakterinə uyğun olaraq müvafiq dialoq tipləri seçilir. Bir qayda olaraq, cavab növbəti sualın yaranmasına səbəb olur. Təkrar replikalar da bu zaman mühüm rol oynayır. Belə ki replikalar özlüyündə daxilən intonasiya ilə bağlanmış cümlələri (cümlə birləşmələrini) və dialoq elementlərini əks etdirir.

## Ədəbiyyat

1. Бырдина Г.В. Динамическая структура диалогической речи. Тверь, ТГУ, 1992,84 с.
2. Винокур Т.Г. О некоторых синтаксических особенностях диалогической речи.// Исследования по грамматике русского литературного языка, М., 1955,43 с.
3. Якубинский Л.П. Избранные работы: Язык и его функционирование. Москва,1986, с.17-58

**Эминли Беюкханум**

## Резюме

**Сумгаитский Государственный Университет**

В статье рассмотрена проблема «язык и этнос», которая является одной из самых сложных как в этнографии и социологии, так и в этнолингвистике прежде всего в связи с теми политико-социальными аспектами, в которых она непосредственно реализуется в жизни.

Язык человека зависит от той культуры, к которой он принадлежит. Проблема соотношения языка и этноса (культурных и бытовых особенностей народа) включает в себя большое количество сложных вопросов: проблема взаимоотношения между структурой языка, семантической стороной речи и особенностями природы, окружающей носителей данного языка. Этническая принадлежность человека – это явление социальное и культурное и определяется сознательно и индивидуально самим человеком (а не семьей, школой, государством, религиозной общиной).Изучение языка как элемента этнического самосознания, вместе с изучением этнической культуры даёт возможность получения информации как о языковых процессах в обществе, так и об этнокультурной ориентации индивида и этноса - степени их языковой и этнокультурной ассимиляции или сохранения.

**Eminli Boyukkhanim**

**Dialogic speech as an ethnocultural factor**
**Summary**

The article explores the problem “language and ethnos”, which is considered one of the most difficult in ethnography and sociology, as well as in ethnolinguistics, foremost with the political and social aspects, which directly realizes in life. The language of human depends on the culture to which he belongs. The problem of relation of language and ethnos (cultural and household features of the nation) covers some difficult questions: the problem of relationship among language structure, semantic side of speech and features of the nature, surrounding carriers of the languages. Ethnic belonging of the human – this is a social and cultural phenomenon and is determined consciously and individually by the human (not by families, school, government, religious community).

Learning the language as an element of ethnic self-awareness, together with ethnic culture makes it possible to gain information not only about language processes in the society, but also about ethnocultural orientation of individual and ethnos – degree of their language and ethnocultural assimilation or preservation.

**Rəyçi: Ramazan Məmmədov**
**Filologiya elmləri doktoru, professor**